# AZƏRBAYCAN RESPUBLİKASININ VERGİ MƏCƏLLƏSİ

## Maddə 164. ƏDV-dən azadolmalar və güzəştlər

164.1. Malların ixracından başqa, malların təqdim edilməsinin, işlər görülməsinin və xidmətlər göstərilməsinin aşağıdakı növlərindən, habelə idxalın aşağıdakı növlərindən ƏDV tutulmur:

164.1.3. milli və ya xarici valyutanın (numizmatika məqsədlərindən başqa), həmçinin qiymətli kağızların göndərilməsi və ya idxal edilməsi;

164.1.4. Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun aktivlərində yerləşdirilməsi üçün nəzərdə tutulan qızılın, habelə Azərbaycan Respublikasının Mərkəzi Bankının valyuta sərvətlərinin, xaricdə istehsal edilmiş Azərbaycan Respublikası pul nişanlarının, yubiley sikkələrinin və digər bu qəbildən olan qiymətlilərin idxalı;

164.1.7. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən media məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı;

164.1.9-1. qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən mal idxalı, iş görülməsi, xidmət göstərilməsi və Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün xidmətlərin göstərilməsi və işlərin görülməsi, o cümlədən xəzinə avadanlıqlarına texniki servis xidməti, pul nişanlarının istehsalı, daşınması, saxlanılması, sığortalanması, istehsal prosesinin auditinin keçirilməsi, ekspertizası, beynəlxalq qızıl-valyuta ehtiyatlarının saxlanılması və idarə edilməsi ilə əlaqədar xidmətlərin, informasiya sistemləri üzrə dəstəkləmə xidmətlərinin, habelə Azərbaycan Respublikası Mərkəzi Bankının məqsəd və funksiyalarının həyata keçirilməsi ilə əlaqədar məsləhət xidmətlərinin göstərilməsi;

164.1.10. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun qanunvericiliklə nəzərdə tutulmuş vəzifələrinin yerinə yetirilməsi ilə bağlı mal idxalı, iş görülməsi və xidmət göstərilməsi.

164.1.11. Azərbaycan Respublikasına, o cümlədən onu təmsil edən hüquqi şəxslərə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü, ixrac boru kəmərləri haqqında və bu qəbildən olan digər sazişlərə uyğun olaraq verilməsi nəzərdə tutulan əsas fondların, daşınan əmlakın və digər aktivlərin Azərbaycan Respublikası Dövlət Neft Fonduna və ya Azərbaycan Respublikasını təmsil edən tərəfə hər hansı şəkildə təqdim edilməsi, habelə idxalı üzrə əməliyyatlar.

164.1.15. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye, yaxud texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi, habelə elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı;

164.1.16. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye və texnologiyalar parkında istehsal sahələrinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi və istehsal məqsədi ilə sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında idxal olunan siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı - rezidentin sənaye və texnologiyalar parkında qeydiyyata alındığı tarixdən 10 il müddətinə;

164.1.19. müdafiə təyinatlı məmulatların (döyüş təyinatlı hərbi texnika, hərbi silah və döyüş sursatlarının, partlayıcı maddə və qurğuların, onların dəstləşdirici hissələrinin) layihələndirilməsi, istehsalı, satışı, təmiri və onlara texniki xidmət göstərilməsi fəaliyyətini həyata keçirən şəxslər tərəfindən bu məqsədlə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin, materialların və xammalın idxalı, habelə həmin şəxslər tərəfindən ~~istehsal edilmiş~~ müdafiə təyinatlı məmulatların satışı, təmiri və onlara texniki xidmət göstərilməsi;

164.1.19-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum), Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən verilmiş təsdiqedici sənəd əsasında müdafiə və dövlət təhlükəsizliyi məqsədləri üçün istifadə olunan bütün növ texnika və texniki vasitələrin, onların ehtiyat hissələrinin, xüsusi proqram təminatlarının və silah-sursatın idxalı və satışı;

164.1.20. Azərbaycan Respublikasının ərazisində mövcud qaydada qeydiyyatdan keçmiş humanitar təşkilatlar, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) razılığı ilə digər hüquqi və fiziki şəxslər tərəfindən humanitar yardım kimi gətirilən mallar;

164.1.21. texniki yardım da daxil olmaqla, təmənnasız yardım və xeyriyyə məqsədi ilə dövlətlərin, hökumətlərin və beynəlxalq təşkilatların xətti ilə gətirilən mallar;

164.1.22. müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallarda və qaydada fiziki şəxs tərəfindən gömrük sərhədindən keçirilən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallar;

164.1.23. ixrac məqsədli neft-qaz fəaliyyəti ilə əlaqədar gətirilən avadanlıq və materiallar (müvafiq icra hakimiyyəti orqanı tərəfindən ixrac məqsədli neft-qaz fəaliyyəti üzrə Azərbaycan Respublikasına idxal olunan avadanlıq və materialların təsdiq olunmuş siyahısı gömrük orqanlarına təqdim edildiyi təqdirdə);

164.1.24. xüsusi iqtisadi zonaya idxal edilən mallar (aksizli mallar istisna olmaqla);

164.1.25. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin idxalı;

164.1.26. investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə;

164.1.27. buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı - 2017-ci il yanvarın 1-dən 10 il müddətinə;

164.1.28. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidenti tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında həmin fəaliyyətin məqsədləri üçün bütün növ malların idxalı - 2016-cı il mayın 1-dən 10 il müddətinə;

164.1.29. damazlıq heyvanların idxalı və satışı;

164.1.30. toxum və tinglərin idxalı və satışı;

164.1.31. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən gübrələrin, pestisidlərin idxalı və satışı;

164.1.32. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən toxumların yetişdirilməsi, quşçuluq və arıçılıq üçün avadanlıqların, o cümlədən bu sahələrdə istifadəsi nəzərdə tutulmuş laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı;

164.1.33. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən kənd təsərrüfatı heyvanlarının və quşların

profilaktikası, diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı;

164.1.34. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların, habelə kənd təsərrüfatı texnikasının ehtiyat hissələrinin istehsalı, idxalı və satışı;

164.1.35. siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan xammalın və materialların idxalı;

164.1.38. mülki aviasiya məqsədləri üçün idxal edilən hava gəmiləri, onların ehtiyat hissələri, mühərrikləri və güc qurğuları;

164.1.40. KOB klaster şirkəti tərəfindən mikro, kiçik və orta sahibkarlığın inkişafını dəstəkləyən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal, yaxud emal məqsədləri üçün texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – KOB klaster şirkətinin KOB klaster şirkətlərinin reyestrinə daxil edildiyi tarixdən 7 il müddətinə;

164.1.41. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilmiş təsdiqedici sənədə əsasən sənaye parklarının rezidentləri tərəfindən sənaye istehsalı (yığımı) məqsədilə oturacaqsız, tutacaqsız və monitoru quraşdırılmamış yalnız elektrik mühərriki ilə işləyən avtobusların idxalı və sənaye parklarının rezidentləri tərəfindən idxal edilmiş həmin avtobusların oturacağı, tutacağı və monitoru quraşdırılmaqla satışı – 2026-cı il yanvarın 1-dən 1 il müddətinə;

164.1.41-2. elektrik mühərriki ilə işləyən avtomobillər üçün ikinci və üçüncü səviyyə elektrik enerji doldurucularının idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 5 il müddətinə;

164.1.41-4. Azərbaycan Respublikasının ərazisində istehsal olunan avtobusların və yük avtomobillərinin satışı, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında hüquqi şəxslər tərəfindən istehsal məqsədilə avtobusların və yük avtomobillərinin ehtiyat hissələrinin idxalı – avtobuslara münasibətdə 2025-ci il yanvarın 1-dən 8 il müddətinə, yük avtomobillərinə münasibətdə 2026-cı il yanvarın 1-dən 7 il müddətinə;

164.1.52. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında iri neft emalı zavodlarının (xam neft üzrə illik emal gücü 3 milyon tondan az olmayan) yenidən qurulması layihələri çərçivəsində avadanlıqların və materialların idxalı – 2021-ci il yanvarın 1-dən 8 il müddətinə;

164.1.54. qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə müvafiq icra hakimiyyəti

orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında dəzgahların, avadanlıqların və qurğuların idxalı – 2021-ci il yanvarın 1-dən 6 il müddətinə;

164.1.56. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi çərçivəsində bütün növ texnikanın, avadanlıqların, texniki vasitələrin və qurğuların, onların ehtiyat hissələrinin, fərdi zirehli qoruyucu geyimlərin, alətlərin, ~~minaaxtaran itlərin,~~ partlayıcı və pirotexniki vasitələrin , onların yaradılması və (və ya) istehsalı üçün texnologiyaların, avadanlıqların, dəstləşdirici hissələrin və xammalın, habelə minaaxtaran itlərin idxalı – 2023-cü il martın 1-dən 5 il müddətinə;

164.1.60. siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş əsas vəsaitlərin idxalı;

164.1.61. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yenidən qurulması layihəsi çərçivəsində avadanlıqların və ehtiyat hissələrinin idxalı – 2023-cü il yanvarın 1-dən 3 il müddətinə;

164.1.62. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) verdiyi təsdiqedici sənəd əsasında svop əməliyyatları çərçivəsində xam neftin və təbii qazın idxalı -2024-cü il yanvarın 1-dən 3 il müddətinə;

164.1.63. aşağıda göstərilən hallarda və müddətlərdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında malların idxalı:

164.1.63.1. dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində özəl tərəfdaş və ya layihə şirkəti olan şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – "Dövlət-özəl tərəfdaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış dövlət-özəl tərəfdaşlığı müqaviləsində müəyyən olunan müddətdə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq;

164.1.63.2. dövlətin satınalma öhdəliyi ilə bərpa olunan enerji mənbələrindən istifadə edilməklə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi məbləğdən aşağı olmayan elektrik enerjisi istehsalı layihələri üzrə istehsalçı olan şəxslər tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı – "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bağlanılmış elektrik enerjisinin satınalma müqaviləsi ilə müəyyən olunan müddətdə, lakin 30 ildən (tikinti dövrü də daxil olmaqla) çox olmayaraq;

164.1.63.3. dövlət-özəl tərəfdaşlığı müqaviləsində vergi güzəştlərindən istifadə etmək hüququ nəzərdə tutulan və belə müqavilə üzrə özəl tərəfdaşın və ya layihə şirkətinin tikinti işlərinə cəlb etdiyi podratçısı tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı (idxal edilən mallar həmin layihənin dəyərinə aid edildiyi təqdirdə) - dövlət-özəl tərəfdaşlığı müqaviləsində tikinti işlərinin həyata keçirilməsi üçün nəzərdə tutulan müddətdə.

**Maddə 165. Verginin sıfır (0) dərəcəsi ilə tutulması**

165.1. Aşağıdakı işlərin görülməsinə, xidmətlərin göstərilməsinə və əməliyyatların aparılmasına görə ƏDV sıfır (0) dərəcəsi ilə tutulur:

165.1.1. Azərbaycan Respublikasında akkreditə edilmiş beynəlxalq təşkilatların və xarici Ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin müvafiq statuslu Azərbaycan Respublikasının vətəndaşı olmayan diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mallar və xidmətlər;

165.1.2. qrant müqaviləsi (qərarı) əsasında xaricdən alınan qrantlar hesabına malların idxalı, qrant üzrə resipiyentlərə malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi;

165.1.3. malların və bu Məcəllənin 168.1.5-ci maddəsində göstərilmiş xidmətlərin ixracı, habelə malların, o cümlədən Azərbaycan Respublikasının ərazisində istehsal edilən və rüsumsuz ticarət mağazalarında satılması ilə bağlı xüsusi nişanı olan aksizli malların rüsumsuz ticarət mağazalarına təqdim edilməsi;

165.1.4. beynəlxalq poçt xidmətləri istisna olmaqla, beynəlxalq və tranzit yük və sərnişin daşınması, habelə tranzit yük daşınması ilə bilavasitə bağlı yük aşırılma xidməti. Beynəlxalq və tranzit uçuşlarla bilavasitə bağlı olan işlərin görülməsi, xidmətlərin göstərilməsi, habelə beynəlxalq və tranzit yük daşınması ilə bağlı ekspeditor xidmətlərinin göstərilməsi;

165.1.5. Azərbaycan Respublikasının Mərkəzi Bankına qızıl və digər qiymətlilərin göndərilməsi.

165.1.9. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada malların ixrac qeydi ilə satışı;

165.1.10. müəssisənin nizamnamə fonduna (kapitalına) pay şəklində əsas vəsaitin qoyulması (əsas vəsaitin pay şəklində qoyuluşu, onun müqabilində bilavasitə digər əmlakın əldə edilməsi ilə əlaqədar olmadıqda) ;

165.1.11. qeyri-rezidentin sifarişi əsasında gəmiqayırma və gəmi təmiri müəssisələri tərəfindən gəmilərin, digər dəniz və su nəqliyyatı vasitələrinin, hidrotexniki qurğuların təmiri üzrə xidmətlərin göstərilməsi.

165.2. Bu Məcəllənin 165.1.1-ci maddəsi üzrə sıfır (0) dərəcəsi ilə ƏDV o ölkələrə münasibətdə tətbiq edilir ki, həmin ölkələr tərəfindən 165.1.1-ci maddəsində göstərilən işlərə, xidmətlərə və əməliyyatlara görə ƏDV sıfır (0) dərəcəsi ilə tətbiq edilsin.

165.3. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış, istehsal yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara, habelə tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin qaytarılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə görə ƏDV yalnız nağdsız ödənişlər üzrə qaytarılır.

**Maddə 227. Azadolmalar**

227.2. ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan işğaldan azad edilmiş ərazinin rezidentləri tərəfindən siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilmiş iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən etibarən 10 (on) il müddətində ƏDV-dən azaddır. Bu maddənin müddəaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada verilmiş təsdiqedici sənəd əsasında tətbiq edilir.

227.2-1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi məqsədilə xammal və materialların idxalı 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azaddır.

227.2-2. İnvestisiya təşviqi sənədini almış Naxçıvan Muxtar Respublikasının rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal və xidmətlərin göstərilməsi (işlərin görülməsi) məqsədilə xammal və materialların idxalı 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azaddır.

227.2-3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı və Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşən sənaye məhəllələrinin rezidenti olan hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və

qurğuların, habelə xammal və materialların idxalı 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə ƏDV-dən azaddır.
227.4. Bu maddədə nəzərdə tutulan vergi azadolmaları aşağıdakı şərtlər daxilində tətbiq edilir:
227.4.1. istehsal, o cümlədən emal və hasilat fəaliyyəti sahəsi üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və həmin ərazilərdə bu fəaliyyəti göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir. Bu maddədə nəzərdə tutulan vergi azadolması istehsal, o cümlədən emal və ya hasil edilərək işğaldan azad edilmiş ərazi daxilində və ya həmin ərazidən kənara təqdim edilən, habelə Azərbaycan Respublikasının ərazisindən ixrac edilən mallara görə əldə olunan gəlirlərə şamil edilir;
227.4.2. topdansatış ticarət, tikinti və xidmət (əhaliyə göstərilən xidmətlər istisna olmaqla) sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazinin rezidentlərinə təqdim edən hüquqi və fiziki şəxslərə münasibətdə tətbiq edilir.
Həmin şəxslər malları (işləri, xidmətləri) işğaldan azad edilmiş ərazidən kənarda fəaliyyət göstərən şəxslərə təqdim etdikləri, o cümlədən Azərbaycan Respublikası ərazisindən ixrac etdikləri halda, bu maddədə nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir;
227.4.3. turizm, pərakəndə ticarət, ictimai iaşə və digər əhaliyə xidmət sahələri üzrə vergi azadolması işğaldan azad edilmiş ərazidə vergi uçotuna alınan və həmin ərazilərdə fəaliyyət göstərən vergi ödəyicilərinə münasibətdə tətbiq edilir;
227.4.4. bu Məcəllənin 227.4.1 - 227.4.3-cü maddələrində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazinin rezidenti işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda da (Azərbaycan Respublikası ərazisi daxilində) eyni növ fəaliyyəti həyata keçirdiyi halda, bu maddədə nəzərdə tutulan vergi azadolmaları həmin şəxslərə şamil edilmir;
227.4.5. bu Məcəllənin 227.4.1 - 227.4.3-cü maddələrində nəzərdə tutulan fəaliyyət növləri ilə məşğul olan işğaldan azad edilmiş ərazinin rezidenti işğaldan azad edilmiş ərazi ilə yanaşı, həmin ərazidən kənarda, o cümlədən Azərbaycan Respublikasının hüdudlarından kənarda digər fəaliyyət növü həyata keçirdiyi halda işğaldan azad edilmiş ərazidə göstərilən fəaliyyətlə həmin ərazilərdən kənarda göstərilən digər fəaliyyət növləri üzrə əldə edilən gəlirlərin və xərclərin uçotu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparılır.

**“İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən *media* məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin və həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın Siyahısı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununun tətbiqi və həmin Qanunun tətbiqi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 29 dekabr tarixli 1533 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən *media* məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin və həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 13 may 2022-ci il
№ 184

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2022-ci il 13 may tarixli 184 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən media məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin və həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın**

**S İ Y A H I S I**

| XİF MN üzrə kod | Malların təsviri |
|---|---|
| **1** | **2** |
| 4801 00 000 0 | Rulonlarda və ya vərəqlər şəklində qəzet kağızı |
| 4802 54 000 0 | 4801 və ya 4803 mal mövqeyinin kağızından başqa, tərkibində mexaniki və ya kimyəvi-mexaniki üsulla alınmış liflər olmayan və ya tərkibində belə liflərin ümumi miqdarı lif kütləsinin 10 %-dən çox olmayan, 1 m2-nin kütləsi 40 q-dan az olan rulonlarda və ya istənilən ölçülü düzbucaqlı (kvadrat da daxil olmaqla) vərəqlərdə, yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton |
| 4802 55 150 0<br>4802 55 250 0<br>4802 55 300 0<br>4802 55 900 0 | 4801 və ya 4803 mal mövqeyinin kağızından başqa, tərkibində mexaniki və ya kimyəvi-mexaniki üsulla alınmış liflər olmayan və ya tərkibində belə liflərin ümumi miqdarı lif kütləsinin 10 %-dən çox olmayan, 1 m2-nin kütləsi 40 q və ya daha çox, lakin 150 q-dan çox olmayan, rulonlarda, yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton |
| 4802 56 800 0 | 4801 və ya 4803 mal mövqeyinin kağızından başqa, tərkibində mexaniki və ya kimyəvi-mexaniki üsulla alınmış liflər olmayan və ya tərkibində belə liflərin ümumi miqdarı lif kütləsinin 10 %-dən çox olmayan, 1 m2-nin kütləsi 40 q və ya daha çox olan, lakin 150 q-dan çox olmayan, açılmış halda bir tərəfinin ölçüsü 435 mm-dən, digər tərəfinin ölçüsü 297 mm-dən çox olmayan vərəqlərdə, yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton (bir tərəfinin ölçüsü 297 mm və digər tərəfinin ölçüsü 210 mm olan A4 formatlı vərəqlərdən başqa) |
| 4802 57 000 0 | 4801 və ya 4803 mal mövqeyinin kağızından başqa, tərkibində mexaniki və ya kimyəvi-mexaniki üsulla alınmış liflər olmayan və ya tərkibində belə liflərin ümumi miqdarı lif kütləsinin 10 %-dən çox olmayan, 1 m2-nin kütləsi 40 q və ya daha çox olan, lakin 150 q-dan çox olmayan, açılmış halda bir tərəfinin ölçüsü 435 mm-dən, digər tərəfinin ölçüsü 297 mm-dən çox olan vərəqlərdə, yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton |

| | |
|---|---|
| 4802 58 100 0<br>4802 58 900 0 | 4801 və ya 4803 mal mövqeyinin kağızından başqa, tərkibində mexaniki və ya kimyəvi-mexaniki üsulla alınmış liflər olmayan və ya tərkibində belə liflərin ümumi miqdarı lif kütləsinin 10 %-dən çox olmayan, 1 m2-nin kütləsi 150 q-dan çox olan rulonlarda və ya istənilən ölçülü düzbucaqlı (kvadrat da daxil olmaqla) vərəqlərdə, yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton |
| 4802 61 150 0<br>4802 61 800 0 | 4801 və ya 4803 mal mövqeyinin kağızından başqa, tərkibində mexaniki və ya kimyəvi-mexaniki üsulla alınmış liflərin ümumi miqdarı lif kütləsinin 10 %-dən çox olan, rulonlarda, yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton |
| 4802 62 000 0<br>4802 69 000 0 | 4801 və ya 4803 mal mövqeyinin kağızından başqa, tərkibində mexaniki və ya kimyəvi-mexaniki üsulla alınmış liflərin ümumi miqdarı lif kütləsinin 10 %-dən çox olan, vərəqlərdə, yazı, çap və ya digər qrafik məqsədləri üçün istifadə edilən təbaşirlənməmiş kağız və karton |
| 4810 13 000 0<br>4810 14 000 0<br>4810 19 000 0<br>4810 22 000 0<br>4810 29 300 0<br>4810 29 800 0 | Bir və ya hər iki tərəfi bağlayıcı maddələr işlədilməklə və ya onlarsız kaolinlə (Çin gili ilə) və ya digər qeyri-üzvi maddələrlə örtülmüş, hər hansı bir digər örtüksüz, boyanmış və ya boyanmamış, dekorasiyalı səthli və ya onsuz, çap olunmuş və ya çap olunmamış, rulonlarda və ya istənilən ölçülü düzbucaqlı (kvadrat da daxil olmaqla) vərəqlər şəklində yazı, çap və ya digər qrafik məqsədləri üçün kağız və karton |
| 4820 90 000 0-dan | Kitabların cildlənməsi üçün tikilən kağız və karton üzlük |
| 4901 | Çap edilmiş kitablar, broşürlər, vərəqlər və analoji çap materialları, kitab şəklində bağlanılmış və ya ayrı-ayrı vərəqlər şəklində |
| 4902 | İllüstrasiyalı və ya illüstrasiyasız, içində reklam materialı olan və ya olmayan qəzetlər, jurnallar və digər dövri nəşrlər |
| 4903 00 000 0 | Kitab-şəkillər, rəsm üçün və ya rəngləmə üçün uşaq kitabları |
| 4904 00 000 0 | Cildlənmiş və ya cildlənməmiş, illüstrasiyalı və ya illüstrasiyasız çap olunmuş və ya əlyazma notlar |
| 4905 20 000 0 | Kitablar şəklində çap edilmiş atlaslar, divar xəritələri, topoqrafik planlar da daxil olmaqla, coğrafi və hidroqrafik xəritələr və ya bütün növ analoji xəritələr |

**“İdxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin Siyahısı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İdxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin Siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 3 sentyabr 2024-cü il
№ 383

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2024-cü il 3 sentyabr tarixli 383 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## İdxalı əlavə dəyər vergisindən azad edilən lizinq müqaviləsinin obyekti olan əsas vəsaitlərin

## S İ Y A H I S I

| Sıra №-si | XİF MN üzrə kodu | Mal mövqelərinin adı |
|---|---|---|
| 1. | 8402 11 000 0 | Saatda 45 t-dan çox buxar yaradan su borulu qazanlar |
| 2. | 8402 12 000 0 | Saatda 45 t və ya daha az buxar yaradan su borulu qazanlar |
| 3. | 8402 19 900 0 | Tüstü bacalı qazanlar istisna olmaqla, kombinasiya olunmuş daxil olmaqla, digər buxar yaradan qazanlar |
| 4. | 8402 20 000 0 | Qaynar su qazanları |
| 5. | 8416 20 100 0 | Maye yanacaq üçün odluqlar istisna olmaqla, yalnız qaz üçün, monobloklu, ventilyator və idarə qurğuları olan qızdırma odluqları |
| 6. | 8416 20 200 0 | Maye yanacaqlar üçün olmayan, yalnız qaz üçün, monobloklu, ventilyator və idarə qurğuları olan odluqlar istisna olmaqla digər kombinasiya edilmiş odluqlar |
| 7. | 8419 40 000 0 | Distillə etmə və ya rektifikasiya üçün aparatlar |
| 8. | 8421 11 000 0 | Mərkəzdənqaçma quruducular daxil olmaqla sentrifuqa süd separatorları |
| 9. | 8422 20 000 1 | Qida məhsullarının istehsalında istifadə olunan butulkaların və ya digər tutumların yuyulması və ya qurudulması üçün avadanlıq |
| 10. | 8422 20 000 9 | Qida məhsullarının istehsalında istifadə olunmayan butulkaların və ya digər tutumların yuyulması və ya qurudulması üçün avadanlıq |
| 11. | 8422 30 000 0 | Butulkaların, bankaların doldurulması, tıxanması, yeşiklərin, torbaların və digər tutumların bağlanması, onların möhürlənməsi və ya etiketləşdirilməsi üçün avadanlıq; butulkaların, bankaların, tübiklərin və analoji tutumların qalpaqlarla və ya qapaqlarla hermetik bağlanması üçün avadanlıq; içkilərin qazlaşdırılması üçün avadanlıq |
| 12. | 8422 40 000 0 | Digər qablaşdırma və bükmə (qablaşdırma materiallarını termogeydirmə üsulu ilə bürüyən avadanlıq daxil olmaqla) üçün avadanlıq |
| 13. | 8429 11 001 0 | Gücü 250 at gücündən çox olan tırtıllı, dönməz və dönər kavahınla buldozerlər |
| 14. | 8429 11 002 0 | Gücü 400 at gücü və daha çox olan, -50ºC və aşağı hava temperaturunda işləmək üçün nəzərdə tutulmuş tırtıllı, dönməz və dönər kavahınla buldozerlər |

| | | |
|---|---|---|
| 15. | 8429 11 009 0 | Digər tırtıllı, dönməz və dönər kavahınla buldozerlər |
| 16. | 8429 19 000 0 | Tırtılsız, dönməz və dönər kavahınla buldozerlər |
| 17. | 8429 20 001 0 | Gücü 350 at gücü və daha çox olan qreyderlər |
| 18. | 8429 20 009 0 | Gücü 350 at gücündən az olan qreyderlər |
| 19. | 8429 30 000 0 | Skreperlər |
| 20. | 8429 40 900 0 | Toxaclayıcı maşınlar |
| 21. | 8429 51 100 0 | Yeraltı işlər üçün xüsusi hazırlanmış frontal birçalovlu yükləyicilər |
| 22. | 8429 51 910 0 | Yeraltı işlər üçün xüsusi hazırlanmış tırtıllı, frontal birçalovlu yükləyicilər |
| 23. | 8429 51 990 0 | Birçalovlu tırtıllı yükləyicilər istisna olmaqla, yeraltı işlər üçün xüsusi hazırlanmamış frontal birçalovlu yükləyicilər |
| 24. | 8429 52 100 0 | Tamdönər tırtıllı ekskavatorlar |
| 25. | 8429 52 900 0 | Tırtıllı ekskavatorlardan başqa digər tamdönər maşınlar |
| 26. | 8429 59 000 0 | Tamdönər maşınlar və frontal birçalovlu yükləyicilər istisna olmaqla digər mexaniki kürəklər və ekskavatorlar |
| 27. | 8433 11 100 0 | Qazonlar, parklar və ya idman meydançaları üçün, mühərrikli, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə elektrik otbiçənlər |
| 28. | 8433 11 510 0 | Qazonlar, parklar və ya idman meydançaları üçün, mühərrikli, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə elektrik olmayan özügedən oturacaqlı otbiçənlər |
| 29. | 8433 11 590 0 | Qazonlar, parklar və ya idman meydançaları üçün, mühərrikli, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə elektrik olmayan özügedən oturacaqsız otbiçənlər |
| 30. | 8433 11 900 0 | Özügedən otbiçənlərdən başqa, qazonlar, parklar və ya idman meydançaları üçün, mühərrikli, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə elektrik olmayan otbiçənlər |
| 31. | 8433 19 100 0 | Qazonlar, parklar və ya idman meydançaları üçün, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə olanlar istisna olmaqla, mühərrikli, elektrik otbiçənlər |
| 32. | 8433 19 510 0 | Qazonlar, parklar və ya idman meydançaları üçün, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə olanlar istisna olmaqla, mühərrikli, elektrik olmayan, özügedən oturacaqlı otbiçənlər |
| 33. | 8433 19 590 0 | Qazonlar, parklar və ya idman meydançaları üçün, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə olanlar istisna olmaqla, mühərrikli, elektrik olmayan, özügedən oturacaqsız otbiçənlər |
| 34. | 8433 19 700 0 | Qazonlar, parklar və ya idman meydançaları üçün, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə olanlar istisna olmaqla, mühərrikli, elektrik olmayan, özügetməyən otbiçənlər |
| 35. | 8433 19 900 0 | Qazonlar, parklar və ya idman meydançaları üçün, üfüqi səth üzərində fırlanan kəsici hissə ilə olanlar istisna olmaqla, mühərriksiz otbiçənlər |
| 36. | 8434 20 000 0 | Südün emalı və təkrar emalı üçün avadanlıq |

| | | |
|---|---|---|
| 37. | 8435 10 000 0 | Preslər, xırdalayıcılar və şərabçılıq, sidr, meyvə şirələri və ya analoji içkilərin istehsalı üçün analoji avadanlıq |
| 38. | 8435 90 000 0 | Preslər, xırdalayıcılar və şərabçılıq, sidr, meyvə şirələri və ya analoji içkilərin istehsalı üçün analoji avadanlıq hissələri |
| 39. | 8436 80 100 0 | Meşə təsərrüfatı üçün maşınlar və avadanlıq |
| 40. | 8437 80 000 0 | Kənd təsərrüfatı fermalarında istifadə olunan avadanlıqdan başqa, unüyütmə sənayesi üçün avadanlıq və ya taxıl və ya quru paxlalı bitkilərin emalı üçün avadanlıq |
| 41. | 8438 10 100 0 | Çörək-bulka məmulatlarının istehsalı üçün avadanlıq |
| 42. | 8438 10 900 0 | Makaron, spagetti və ya analoji məhsulların istehsalı üçün avadanlıq |
| 43. | 8438 20 000 0 | Qənnadı sənayesi, kakao tozunun və ya şokoladın istehsalı üçün avadanlıq |
| 44. | 8438 30 000 0 | Şəkər sənayesi üçün avadanlıq |
| 45. | 8438 40 000 0 | Pivəbişirmə sənayesi üçün avadanlıq |
| 46. | 8438 50 000 0 | Ətin və ya quş ətinin emalı üçün avadanlıq |
| 47. | 8438 60 000 0 | Meyvənin, qoz-fındığın və ya tərəvəzin emalı üçün avadanlıq |
| 48. | 8438 80 100 0 | Çayın və ya qəhvənin emalı üçün avadanlıq |
| 49. | 8438 80 910 0 | İçkilərin hazırlanması və ya istehsalı üçün avadanlıq |
| 50. | 8438 80 980 0 | Digər avadanlıqlar |
| 51. | 8438 90 000 0 | Qida məhsullarının və ya içkilərin istehsalı və ya hazırlanması üçün avadanlıqların hissələri |
| 52. | 8439 10 000 0 | Lifli sellüloz materiallardan kütlənin istehsalı üçün avadanlıq |
| 53. | 8439 20 000 0 | Kağız və ya karton istehsalı üçün avadanlıq |
| 54. | 8439 30 000 0 | Kağızın və kartonun işlənməsi üçün avadanlıq |
| 55. | 8441 30 000 0 | Qəlibləmədən fərqli üsullarla karton qutuların, qutuların, yeşiklərin, boruların, barabanların və ya analoji tutumların hazırlanması üçün maşınlar |
| 56. | 8441 40 000 0 | Kağız kütləsindən, kağızdan və kartondan olan məmulatların qəliblənməsi üçün maşınlar |
| 57. | 8441 80 000 0 | Kəsmə maşınları, paket, kisə və konvertlərin hazırlanması üçün maşınlar, qəlibləmədən fərqli üsullarla karton qutuların, qutuların, yeşiklərin, boruların, barabanların və ya analoji tutumların hazırlanması üçün maşınlar, kağız kütləsindən, kağızdan və kartondan olan məmulatların qəliblənməsi üçün maşınlardan fərqli, kağız kütləsindən, kağızdan və ya kartondan məmulatların istehsalı üçün avadanlıq |
| 58. | 8445 19 000 0 | Tekstil liflərin hazırlanması üçün digər maşınlar |
| 59. | 8446 29 000 0 | Eni 30 sm-dən çox olan parçaların hazırlanması üçün məkikli, mühərriksiz toxuculuq dəzgahları |
| 60. | 8453 80 000 0 | Tikiş maşınlarından başqa, dəridən və ya göndən digər məmulatların hazırlanması və ya təmiri üçün avadanlıq |

| | | |
|---|---|---|
| 61. | 8456 12 000 0 | Lazer şüalanması proseslərinin istifadəsi ilə işləyənlər istisna olmaqla, işıq və ya foton şüalanması proseslərinin istifadəsi ilə işləyən dəzgah və maşınlar |
| 62. | 8456 20 000 0 | Ultrasəs proseslərinin istifadəsi ilə işləyən dəzgah və maşınlar |
| 63. | 8456 30 110 0 | Elektrik boşalması prosesinin köməyi ilə, rəqəmli proqram idarəetmə ilə işləyən məftil ekektrodlu dəzgahlar |
| 64. | 8456 30 190 0 | Elektrik boşalması prosesinin köməyi ilə, rəqəmli proqram idarəetmə ilə işləyən məftil elektrodsuz dəzgah |
| 65. | 8456 30 900 0 | Elektrik boşalması proseslərinin istifadəsi ilə işləyən, rəqəmli proqram idarəetməsiz işləyən dəzgah və maşınlar |
| 66. | 8456 50 000 0 | Suşırnaqlı kəsici maşınlar |
| 67. | 8456 90 000 0 | Lazer və ya digər işıq və ya foton şüalanması, ultrasəs proseslərinin istifadəsi, elektrik boşalması, plazma-gövs proseslərinin istifadəsi ilə işləyənlərdən fərqli, materialların emalı üçün dəzgahlar |
| 68. | 8457 10 900 0 | Metal emalı üçün üfüqi olmayan emal mərkəzləri |
| 69. | 8457 20 000 0 | Birmövqeli aqreqat dəzgahlar |
| 70. | 8457 30 100 0 | Rəqəmli proqram idarəetmə ilə çoxmövqeli aqreqat dəzgahlar |
| 71. | 8457 30 900 0 | Rəqəmli proqram idarəetməsi ilə olanlardan başqa çoxmövqeli aqreqat dəzgahlar |
| 72. | 8458 11 410 0 | Üfüqi, rəqəmli proqram idarəetmə ilə, bir şpindelli torna avtomatları |
| 73. | 8458 11 490 0 | Üfüqi, rəqəmli proqram idarəetmə ilə, çoxşpindelli torna avtomatları |
| 74. | 8458 11 800 0 | Üfüqi, rəqəmli proqram idarəetmə ilə digər torna dəzgahları |
| 75. | 8458 19 000 0 | Digər üfüqi metalkəsən torna dəzgahları |
| 76. | 8458 91 200 0 | Rəqəmli proqram idarəetmə ilə çoxməqsədli torna dəzgahları |
| 77. | 8458 91 800 0 | Rəqəmli proqram idarəetmə ilə digər torna dəzgahları |
| 78. | 8458 99 000 0 | Rəqəmli proqram idarəetmə ilə olmayan digər torna dəzgahları |
| 79. | 8459 10 000 0 | Xətti quruluşlu aqreqat dəzgahlar |
| 80. | 8459 21 000 0 | Rəqəmli proqram idarəetmə ilə digər burğulama dəzgahları |
| 81. | 8459 29 000 0 | Rəqəmli proqram idarəetmə ilə olmayan digər burğulama dəzgahları |
| 82. | 8459 31 000 0 | Rəqəmli proqram idarəetmə ilə digər yonma-frezləmə dəzgahları |
| 83. | 8459 39 000 0 | Rəqəmli proqram idarəetmə ilə olmayan digər yonma-frezləmə dəzgahları |
| 84. | 8459 41 000 0 | Rəqəmli proqram idarəetmə ilə digər yonma dəzgahları |
| 85. | 8459 49 000 0 | Rəqəmli proqram idarəetmə ilə olmayan digər yonma dəzgahları |
| 86. | 8459 51 000 0 | Rəqəmli proqram idarəetmə ilə konsol frezləmə dəzgahları |
| 87. | 8459 59 000 0 | Rəqəmli proqram idarəetmə ilə olmayan konsol frezləmə dəzgahları |

| | | |
|---|---|---|
| 88. | 8459 61 100 0 | Rəqəmli proqram idarəetmə ilə alət-frezləmə dəzgahları |
| 89. | 8459 61 900 0 | Rəqəmli proqram idarəetmə ilə digər frezləmə dəzgahları |
| 90. | 8459 69 100 0 | Rəqəmli proqram idarəetmə ilə olmayan alət-frezləmə dəzgahları |
| 91. | 8459 69 900 0 | Rəqəmli proqram idarəetmə ilə olmayan digər frezləmə dəzgahları |
| 92. | 8460 12 100 0 | Rəqəmli proqram idarəetmə ilə, istənilən oxunun üzərində 0,01 mm-dən aşağı olmayan mövqeləşmə dəqiqliyi olan yastı cilalama dəzgahları |
| 93. | 8460 12 900 0 | Rəqəmli proqram idarəetmə ilə, bütün oxlarının üzərində 0,01 mm-dən aşağı mövqeləşmə dəqiqliyi olan cilalama dəzgahları |
| 94. | 8460 19 100 0 | Rəqəmli proqram idarəetməsiz, istənilən oxunun üzərində 0,01 mm-dən aşağı olmayan mövqeləşmə dəqiqliyi olan yastı cilalama dəzgahları |
| 95. | 8460 19 900 0 | Rəqəmli proqram idarəetməsiz, bütün oxlarının üzərində 0,01 mm-dən aşağı mövqeləşmə dəqiqliyi olan cilalama dəzgahları |
| 96. | 8460 22 100 0 | İstənilən oxunun üzərində 0,01 mm-dən aşağı olmayan mövqeləşmə dəqiqliyi olan, rəqəmli proqram idarəetmə ilə mərkəzsiz cilalama dəzgahları |
| 97. | 8460 22 900 0 | Bütün oxlarının üzərində 0,01 mm-dən aşağı mövqeləşmə dəqiqliyi olan, rəqəmli proqram idarəetmə ilə mərkəzsiz cilalama dəzgahları |
| 98. | 8460 23 100 0 | İstənilən oxunun üzərində 0,01 mm-dən aşağı olmayan mövqeləşmə dəqiqliyi olan, rəqəmli proqram idarəetmə ilə dairəvi cilalama dəzgahları |
| 99. | 8460 23 900 0 | Bütün oxlarının üzərində 0,01 mm-dən aşağı mövqeləşmə dəqiqliyi olan, rəqəmli proqram idarəetmə ilə dairəvi cilalama dəzgahları |
| 100. | 8460 24 900 0 | Rəqəmli proqram idarəetmə ilə digər cilalama dəzgahları |
| 101. | 8460 29 200 0 | İstənilən oxunun üzərində 0,01 mm-dən aşağı olmayan mövqeləşmə dəqiqliyi olan digər cilalama dəzgahları |
| 102. | 8460 29 800 0 | Bütün oxlarının üzərində 0,01 mm-dən aşağı mövqeləşmə dəqiqliyi olan digər cilalama dəzgahları |
| 103. | 8460 31 000 0 | Rəqəmli proqram idarəetmə ilə itiləyici dəzgahlar (kəsici alətlər üçün) |
| 104. | 8460 39 000 0 | Rəqəmli proqram idarəetməsiz itiləyici dəzgahlar (kəsici alətlər üçün) |
| 105. | 8460 40 100 0 | Rəqəmli proqram idarəetmə ilə honlama və ya tamamlayıcı dəzgahlar |
| 106. | 8460 40 900 0 | Rəqəmli proqram idarəetməsiz honlama və ya tamamlayıcı dəzgahlar |
| 107. | 8460 90 100 0 | Mikrometrik tənzimləmə qurğuları ilə təchiz olunmuş, istənilən oxunun üzərində 0,01 mm-dən aşağı olmayan mövqeləşmə dəqiqliyi olan dəzgahlar |
| 108. | 8461 50 190 0 | Diskli mişarlılardan fərqli mişarlama dəzgahları |

| | | |
|---|---|---|
| 109. | 8461 90 000 0 | Uzununa yonma və materialı kənarlaşdırılmaqla metalların və metal-keramikanın emalı üçün başqa digər dəzgahlar |
| 110. | 8462 11 000 0 | Qapalı ştamplama maşınları |
| 111. | 8462 19 000 0 | Qapalı olmayan ştamplama maşınları |
| 112. | 8462 22 000 0 | Profillər üçün forma verən maşınlar |
| 113. | 8462 26 000 0 | Rəqəmli proqram idarəetməsi olan əymə, kənarəymə, düzləşdirmə maşınları |
| 114. | 8462 29 000 0 | Yastı məmulatlar üçün əymə, kənarəymə, düzləşdirmə üçün digər maşınlar |
| 115. | 8462 32 000 0 | Uzununa kəsmə xətti və eninə kəsmə xətti |
| 116. | 8462 33 000 0 | Rəqəmli proqram idarəetməsi olan çərtmə maşınları |
| 117. | 8462 39 000 0 | Rəqəmli proqram idarəetməsi olmayan çərtmə maşınları |
| 118. | 8462 42 000 0 | Rəqəmli proqram idarəetməsi ilə olan, yastı məmulatlar üçün deşmə, doğrama və ya oyma maşınları (preslərdən başqa), o cümlədən kombinasiya edilmiş deşmə və çərtmə maşınları |
| 119. | 8462 49 000 0 | Rəqəmli proqram idarəetməsi ilə olmayan, yastı məmulatlar üçün deşmə, doğrama və ya oyma maşınları (preslərdən başqa), o cümlədən kombinasiya edilmiş deşmə və çərtmə maşınları |
| 120. | 8462 51 000 0 | Boru, borucuq, içiboş profillərin və çubuqların emalı üçün rəqəmli proqram idarəetməsi ilə maşınlar |
| 121. | 8462 59 000 0 | Boru, borucuq, içiboş profillərin və çubuqların emalı üçün rəqəmli proqram idarəetməsiz maşınlar |
| 122. | 8462 61 009 0 | Metalların soyuq emalı üçün rəqəmli proqram idarəetməsiz hidravlik preslər |
| 123. | 8462 62 001 0 | Rəqəmli proqram idarəetməsi ilə mexaniki preslər |
| 124. | 8462 62 009 0 | Rəqəmli proqram idarəetməsiz mexaniki preslər |
| 125. | 8462 63 001 0 | Rəqəmli proqram idarəetməsi ilə servopreslər |
| 126. | 8463 10 900 0 | Məftilsiz çubuq, boru, profil, məftil və ya analoji məmulatları çəkmə dəzgahları |
| 127. | 8464 10 000 0 | Mişarlama dəzgahları |
| 128. | 8464 20 110 0 | Optik şüşənin emalı üçün cilalama və pardaqlama dəzgahları |
| 129. | 8464 20 190 0 | Digər şüşə emalı üçün cilalama və pardaqlama dəzgahları |
| 130. | 8474 39 000 0 | Betonqarışdırıcılar və ya məhlulqarışdırıcılar, mineral maddələrin bitumla qarışdırılması üçün maşınlar istisna olmaqla, qarışdırma və ya yoğurma üçün digər maşınlar |
| 131. | 8474 80 108 0 | Tibb sənayesi üçün istifadə olunmayan, keramik tərkiblərin aqlomerasiyası, qəliblənməsi və ya tökülməsi üçün avadanlıq |
| 132. | 8477 80 180 0 | Penoplast məmulatların istehsalı üçün digər maşınlar |
| 133. | 8478 10 000 0 | Tütünün hazırlanması üçün avadanlıq |

| | | |
|---|---|---|
| 134. | 8479 20 000 0 | Heyvan mənşəli piylərin və yağların, bitki və ya mikrobioloji mənşəli sabit piylərin və ya yağların ekstraksiyası və ya hazırlanması üçün avadanlıq |
| 135. | 8479 30 900 0 | Ağac və ya mantar emalı üçün digər maşınlar |
| 136. | 8479 50 000 0 | Sənaye robotları |

**“İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, “İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası”nın təsdiq edilməsi, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və “İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri”nin təsdiq edilməsi haqqında” 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin siyahısı” təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 18 iyul 2023-cü il
№ 231

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 18 iyul tarixli 231 nömrəli Qərarı ilə **təsdiq edilmişdir.**

**İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıq və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi nəzərdə tutulan mal mövqelərinin**

## SİYAHISI

| XİF MN üzrə kod | Mal mövqeyinin adı | Qeyd |
|---|---|---|
| **QRUP 73. QARA METALLARDAN MƏMULATLAR** | | |
| 7309 00 | İstənilən maddələr üçün (sıxılmış və ya mayeləşdirilmiş qazdan başqa), qara metallardan rezervuarlar, sisternlər, çənlər və analoji qablar, həcmi 300 l-dən çox olan, üzlüklü və ya termoizolyasiyalı və ya onlarsız, lakin mexaniki və ya istilik-texniki avadanlıqsız | |
| 7321 | Qara metallardan qızdırıcı sobalar, qızdırıcı-bişirmə sobaları və yeməyin hazırlanması üçün sobalar (mərkəzi isitmənin köməkçi qazanları ilə sobalar daxil olmaqla), fritür qazanları, barbekülər (manqallar), plitələr üçün odluqlar, yeməyin qızdırılması üçün qızdırıcılar və analoji qeyri-elektrik məişət cihazları və onların hissələri | |
| 7322 | Qara metallardan qeyri-elektrik qızdırma ilə mərkəzi isitmə üçün radiatorlar və onların hissələri; qara metaldan, quraşdırılmış ventilyatorla və ya mühərrikli hava üfürənlərlə təchiz olunmuş qeyri-elektrik qızdırma ilə hava qızdırıcıları və isti havanın verilməsi üçün (həmçinin, təzə və ya kondisiyalaşdırılmış havanın verilməsi üçün qurğular daxil olmaqla) paylayıcı qurğular və onların hissələri | |
| 7324 | Qara metallardan sanitar-texniki avadanlıq və onun hissələri | |
| **QRUP 82. QİYMƏTSİZ METALLARDAN ALƏTLƏR, QURĞULAR, BIÇAQ MƏMULATLARI, QAŞIQLAR VƏ ÇƏNGƏLLƏR; ONLARIN QİYMƏTSİZ METALLARDAN OLAN HİSSƏLƏRİ** | | |
| 8207 | Metalın ekstruziyası və ya məftil çəkmə üçün filyerlər də daxil olmaqla əl alətləri üçün mexaniki ötürücülü və ya onsuz və ya dəzgahlar üçün (məsələn, presləmə, ştamplama, doğrama, yiv açma, deşmə, oyma, çəkmə, frezləmə, torna emalı və ya vintləmə üçün) dəyişdirilən işçi alətləri, qaya süxurlarının və ya torpağın qazılması | |

| | | |
|---|---|---|
| | üçün alətlər | |
| 8208 | Maşınlar və ya mexaniki qurğular üçün bıçaqlar və kəsici tiyələr | |
| **QRUP 83. QİYMƏTSİZ METALLARDAN HAZIRLANAN DİGƏR MƏMULATLAR** | | |
| 8301 | Qiymətsiz metallardan asma və taxma qıfıllar (açarla, kod kombinasiyası və ya elektriklə işləyən); qiymətsiz metallardan hazırlanmış qıfıllarla birləşdirilmiş siyirtmələr və siyirtməli çərçivələr; yuxarıda göstərilmiş istənilən məmulatlar üçün qiymətsiz metallardan açarlar | |
| **QRUP 84. NÜVƏ REAKTORLARI, QAZANLAR, AVADANLIQ VƏ MEXANİKİ QURĞULAR; ONLARIN HİSSƏLƏRİ** | | |
| 8402 | Buxar qazanları və ya digər buxar yaradan qazanlar (aşağı təzyiqli buxar da yarada bilən mərkəzi istilik su qazanlarından başqa); qaynar su qazanları | |
| 8403 | 8402 mal mövqeyinin qazanlarından başqa, mərkəzi istilik qazanları | |
| 8404 | 8402 və ya 8403 mal mövqeyinin qazanları ilə birlikdə istifadə olunan köməkçi avadanlıq (məsələn, ekonomayzerlər, buxar qızdırıcıları, qurum kənarlaşdırıcıları, qaz rekuperatorları); buxar-su və ya digər buxar güc qurğuları üçün kondensatorlar | |
| 8405 | Təmizləyici qurğularla və ya onlarsız qaz generatorları və ya su qazı generatorları; təmizləyici qurğularla və ya onlarsız asetilen qazı generatorları və analoji qaz generatorları | |
| 8406 | Su buxarı turbinləri və digər buxar turbinləri | |
| 8407 | Dövrü və ya irəli-geri hərəkət edən porşenli, qığılcımla alışan daxili yanma mühərrikləri | |
| 8408 | Sıxılmadan alovlanan porşenli daxili yanma mühərrikləri (dizellər və yarım-dizellər) | |
| 8409 | Yalnız və ya əsasən 8407 və ya 8408 mal mövqeyinin mühərrikləri üçün nəzərdə tutulmuş hissələr | |
| 8410 | Hidravlik turbinlər, su təkərləri və onlar üçün tənzimləyicilər | |
| 8411 | Turboreaktiv və turbovintli mühərriklər, digər qaz turbinləri | |
| 8412 | Digər mühərriklər və güc qurğuları | |
| 8413 | Məsrəfölçənlərlə və ya onlarsız maye nasosları; maye qaldırıcıları | |
